# ÜZEYİR HACIBƏYLİNİN AZƏRBAYCANDA MUSİQİ TƏHSİLİNİN İNKİŞAFINDA ROLU

Azərbaycan professional musiqisinin klassiki, dahi bəstəkar Üzeyir Hacıbəylinin musiqi təhsili sisteminin formalaşmasında və inkişafında böyük rolu olmuşdur. Ü.Hacıbəylinin əsas məqsədi, mühüm məramı Azərbaycanda musiqi təhsilini Avropa ənənələrinə uyğunlaşdırmaq və professional tələblərə cavab verən musiqiçi kadrların yetişdirilməsi olmuşdur. Bu məqsədlə, Ü.Hacıbəyli musiqi təhsilinin inkişafına əvəzsiz töhfələr vermişdir. Ümumiyyətlə, Üzeyir bəy musiqi təhsili sisteminin xüsusiyyətlərinə dərindən bələd idi və özü də vaxtilə bütün bu mərhələləri ardıcıl şəkildə keçərək, professional bəstəkar kimi formalaşmışdır.

Ü.Hacıbəylinin musiqi təhsili sistemi ilə ilk tanışlığı 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında olarkən başlamışdır. Seminariyada təhsil alan zaman o, violin və baritonda ifa etməyi öyrənmiş, elementar musiqi nəzəriyyəsi ilə məşğul olmuşdu. Eyni zamanda seminariyanın xorunda və orkestrində iştirak etməklə, bütün bu mərhələlərin hansı şəkildə keçirildiyini müşahidə etmişdi. Növbəti illərdə musiqi təhsilini davam etdirmək məqsədilə Ü.Hacıbəyli Moskvaya getmiş və fərdi musiqi kurslarında təhsil almağa başlamışdır. Bu dövrdə qarşılaşdığı müxtəlif çətinliklər, o cümlədən maddi vəziyyəti təhsilinin davam etdirilməsinə imkan vermədiyi üçün o, təhsilini yarımçıq saxlamağa məcbur olmuşdur. Lakin musiqi təhsili almaq arzusu, professional səviyyəyə malik olmaq istəyi Ü.Hacıbəylini yenidən təhsil almağa yönəldir. Buna görə də 1913-cü ildə Ü.Hacıbəyli Peterburq Konservatoriyasına daxil olur. Üzeyir bəy zəruri musiqi bacarıqlarını və bəstəkarlıq vərdişlərini tam şəkildə tətbiq etməsi üçün musiqi təhsilinin əsas şərt olduğunu anlayırdı və buna görə musiqi təhsilinin mükəmməl, professional səviyyəyə çatması üçün çalışırdı. Xüsusilə, 1920-ci illərdən başlayaraq, Ü.Hacıbəyli ölkənin musiqi-ictimai həyatında fəal şəkildə iştirak edərək, musiqi təhsilinin əhəmiyyətini anlayır və bu işə böyük diqqət yetirirdi. Məhz Ü.Hacıbəylinin səyi nəticəsində 1920-ci ildə Azərbaycan dilində təhsil alan uşaqlar üçün ilk musiqi məktəbi, bir müddət sonra isə musiqi texnikumu təşkil edilir. 1921- ci ildə yaradılan Azərbaycan Dövlət Konservatoriyası ilk ali musiqi təhsili ocağı olmaqla yanaşı, həm də respublikanın mədəni həyatında bir çox təşəbbüsləri həyata keçirən mərkəz əhəmiyyəti daşıyırdı. Üzeyir bəy konservatoriyada çalışdığı illərdə tələbələrin musiqi təhsili sahəsində bilik və bacarıqlarının formalaşmasına, eyni zamanda tədris prosesi çərçivəsində konsert fəaliyyəti ilə məşğul olmasına xüsusi əhəmiyyət verirdi. Belə ki, Üzeyir bəyin təklifi ilə konservatoriyada ilk çoxsəsli xor təşkil olunmuşdu. Bu xorun fəaliyyəti çox uzun sürməsə də, konservatoriya və musiqi texnikumunda tez-tez Üzeyir bəyin musiqili komediyaları, klassik operalardan ayrı-ayrı səhnələr tamaşaya qoyulurdu. Konservatoriyada müxtəlif ixtisaslar üzrə təhsil alan tələbələr müntəzəm şəkildə respublikanın rayonlarında, müxtəlif müəssisələrdə zəngin konsert repertuarı ilə çıxış edərək, musiqi mühiti və səhnə həyatı ilə daha yaxından tanış olurdular.

Azərbaycan Dövlət Konservatoriyasında əvvəlcə rektor müavini, bir qədər sonra isə rektor vəzifəsinə təyin olan Ü.Hacıbəyli ömrünün sonuna – 1948-ci ilə qədər bu vəzifədə çalışmışdır. Üzeyir bəy bu təhsil ocağının formalaşmasına xüsusi diqqətlə yanaşırdı. Üzeyir bəyin musiqi təhsili sistemində fəaliyyətinin əsas hissəsi Azərbaycan Dövlət Konservatoriyası ilə bağlı olmuşdur. O, Peterburq konservatoriyasında təhsil aldığı dövrdə musiqi təhsili sisteminin quruluşu ilə yaxından tanış olduğu üçün bütün bunları doğma vətənində tətbiq etməyə çalışırdı. Konservatoriyaya daxil olmaq üçün qəbul imtahanlarının olması vacib şərt idi. İlk illərdə konservatoriyaya tələbə qəbulu fortepiano, vokal, orkestr, nəzəriyyə-bəstəkarlıq və şərq şöbəsi üzrə aparılırdı. Həmin dövrdə Üzeyir bəyin təşəbbüsü ilə yaradılan şərq şöbəsində milli musiqi alətlərində ifa etmə bacarıqları öyrədilirdi.

Üzeyir bəyin xüsusi diqqət mərkəzində olan bu şöbənin təşkili birbaşa onun nəzarəti altında fəaliyyət göstərirdi. Şərq şöbəsində musiqi təhsilinin verilməsi əsasən iki istiqaməti əhatə edirdi. Bunlardan birincisi, ilk dəfə olaraq, not sistemi əsasında təhsilin verilməsi və tələbələlərin not yazısını oxumaq bacarıqlarının inkişaf etdirilməsi idi. Digəri isə, milli ifaçılıq sənətinin şifahi ənənə əsasında aparılması idi. Ü.Hacıbəyli tar ifaçılıq sənətini not sistemi üzrə təşkil etməyə üstünlük vermişdir. Bu ənənəvi şifahi ifaçılıq sisteminin konservatoriyada tədrisini Üzeyir bəyin dəvəti ilə burada çalışan görkəmli tarzən Məlik Mənsurov tələbələrə öyrədirdi.

Azərbaycanda milli musiqiçi kadrların hazırlanması məsələsi də ən çox diqqət yetirilən məsələlərdən biri idi. Ü.Hacıbəyli düşünülmüş şəkildə məhz azərbaycanlı tələbələrin hazırlanması məqsədilə Azərbaycan Dövlət Türk Musiqi Məktəbinin yaradılmasına da nail olmuşdu.

Musiqi təhsili sistemində əlamətdar hadisə isə 1926-cı ildə məktəb ilə konservatoriyanın birləşdirilməsi və nəticədə, hər iki müəssisədə musiqi təhsili sisteminin vahid mərkəzdən, planlı şəkildə təşkil olunması oldu. Bu, eyni zamanda tələbə heyətinin də milli kadrlarla zənginləşməsinə yol açdı. Həmin dövrdə Azərbaycan Dövlət Konservatoriyasında ilk milli məzunların olması xüsusilə əlamətdar hadisə kimi dəyərləndirilə bilər. A.Zeynallı, S.Rüstəmov, F.Səmədova, Ə.Həsənov, X.Ağayeva və digərləri konservatoriyanın ilk buraxılış ixtisaslarını təmsil edirdilər.

Ü.Hacıbəyli direktor müavini vəzifəsində çalışsa da, konservatoryanın təşkil olunmasında yaxından iştirak edir və demək olar ki, tam formalaşmış bədii rəhbər kimi mühüm vəzifələri yerinə yetirirdi. Onun musiqi təhsili sistemində ən çox diqqət yetirdiyi məsələlərdən biri də konservatoriyada Azərbaycan musiqisini öyrənən kursların yaradılması idi. Bu məqsədlə, 1925-ci ildə Ü.Hacıbəyli tədris prosesinə belə bir kurs daxil edir: “Şərq musiqisini öyrənən sinif”. Ü.Hacıbəylinin elmi-tədqiqatı ərsəyə gətirdikdən sonra bu fənn “Azərbaycan xalq musiqisinin əsasları” adlanmağa başlayır. Musiqi təhsili sisteminin milli əsaslarla zənginləşməsinə çalışan Ü.Hacıbəyli kursun proqramının tərtib olunmasına, keçilən dərslərin keyfiyyətinin təmin edilməsinə xüsusi həssaslıqla yanaşırdı. Burada göstərdiyi fəaliyyət eyni zamanda Ü.Hacıbəylinin milli musiqinin öyrənilməsi istiqamətində apardığı tədqiqat işinin məzmun baxımdan zənginləşməsinə və yeni məlumatlarla dolğunlaşmasına da təsir göstərmişdir. Nəzərə çatdıraq ki, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev və digər bəstəkarlara “Azərbaycan xalq musiqisinin əsasları” fənnini Ü.Hacıbəyli tədris etmiş və milli musiqinin xüsusiyyətlərinin mənimsənilməsində öz tövsiyələrini bildirmişdir.

Azərbaycanda musiqi təhsili sisteminin yaradılmasında Ü.Hacıbəylinin diqqət yetirdiyi məsələlərdən biri də xalq musiqisinin toplanması və nota salınması məsələsi idi. Elə bu məqsədlə Ü.Hacıbəyli tələbələri bu işə cəlb edərək, onlarla Azərbaycanın müxtəlif bölgələrinə ekspedisiyalara, yaradıcı ezamiyyətlərə gedirdilər. Burada əsas məqsəd musiqi folklorunun zəngin nümunələrinin toplanılması idi. Bütün bunların nəticəsi kimi, 1927-ci ildə M.Maqomayevlə birlikdə müəllifi olduqları “Azərbaycan türk el nəğmələri” kitabı ərsəyə gəlmişdir.

Qərbi Avropa və Şərq musiqi mədəniyyətinin qarşılıqlı şəkildə əlaqələndirilməsi də Ü.Hacıbəylinin musiqi təhsili sistemində böyük əhəmiyyət verdiyi məsələlərdən idi. 1928-30-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasının yenidən qurularaq, ali musiqi təhsili müəssisəsi kimi fəaliyyət göstərməyə başlaması Ü.Hacıbəylinin musiqi təhsili sisteminin təkmilləşdirməsi istiqamətində mühüm əhəmiyyət kəsb etdi. Bu dəyişiklik tədris prosesinin daha da zənginləşməsinə və yeni imkanların yaradılmasına səbəb oldu. Bir müddət sonra isə, 1933-34-cü tədris ili çərçivəsində konservatoriyanın nəzdində “xüsusi istedadlı uşaqlar qrupu”nun yaradılması da

vurğulanmalıdır. Sonralar Bülbül adına orta musiqi məktəbi kimi fəaliyyətini davam etdirən bu qrup milli musiqiçi kadrların hazırlanmasında mühüm rol oynamışdır. Hazırda da fəaliyyət göstərən bu məktəb ənənələrə dayaqlanan musiqi təhsili məktəblərindən biri kimi dəyərlidir.

1930-cu illərdə konservatoriyada hazırlıq şöbəsi funksiyası daşıyan fəhlə fakültəsinin də təşkil olunması qeyd olunmalıdır. Ü.Hacıbəyli rektor vəzifəsində işlədiyi dövrdə bu fakültənin tam yaradıcı və musiqi təhsili sisteminin qaydalarına uyğun şəkildə fəaliyyət göstərməsinə böyük diqqət yetirirdi.

Rektor vəzifəsində çalışdığı illərdə Ü.Hacıbəyli konservatoriyada tədris prosesi ilə bədii-musiqili mühitin birləşməsinə üstünlük verirdi və onun apardığı işlər məhz qarşılıqlı əlaqələrə əsaslanırdı. Ardıcıl və məqsədyönlü şəkildə aparılan tədris prosesi musiqi təhsili sisteminin daha da mükəmməlləşməsi üçün imkanlar yaradırdı. Üzeyir bəyin fəaliyyəti sayəsində musiqi təhsili sistemi respublikanın mədəni həyatına uyğun şəkildə inkişaf edirdi. Eyni zamanda o, konservatoriyadakı təhsil sisteminin mükəmməlliyinə nail olmaqla, onun əsas musiqi ocağı kimi tanınmasına da nail olmuşdur.

Azərbaycanda musiqi təhsili sistemində ən ağır dövr – 1941-45-ci illərə təsadüf edir. Ağır müharibə şəraiti, konservatoriyanın binasının hərbi hospitala çevrilməsi, tələbələrin əksər hissəsinin əsgəri borcunu yerinə yetirməyə getməsi musiqi təhsili sisteminə bilavasitə öz təsirini göstərmişdir. Ağır müharibə şəraitində Ü.Hacıbəyli konservatoriyanın təhsil prosesini qoruyub saxlamağa cəhd etməklə yanaşı, həm də yaradıcı ruhun nizamlanmasına da çalışırdı. Həmin dövrdə cəbhənin müxtəlif bölgələrinə təşkil olunan müəllim və tələbələrdən ibarət musiqi kollektivləri arxa və ön cəbhədə əzmkarlığın bərqərar olması ilə nəticələnirdi. Təkcə onu demək kifayətdir ki, hərbi hamilik işində fəal iştirak edən müəllim və tələbələr 1500-dən artıq konsert vermişlər.

Bu illərdə “Azərbaycan xalq musiqisinin əsasları” kitabını tamamlayan Ü.Hacıbəyli milli musiqi ilə bağlı digər kursun da yaradılması təşəbbüsü ilə çıxış edirdi. Konservatoriyada Azərbaycan şöbəsinin açılması Ü.Hacıbəylinin təşəbbüsü ilə baş tutmuşdu və burada əsas məqsəd müxtəlif bölgələrdən musiqi təhsili almaq üçün tələbələrin hazırlıq kurslarına cəlb edilməsi idi. Böyük həvəslə bu işin tamamlanmasına Ü.Hacıbəyliyə son illərdə keçirdiyi ağır xəstəliyi imkan vermir. Buna görə də 1948- ci ildə şöbə bağlanır.

1940-cı illərdə Azərbaycan musiqi təhsilində bəstəkarlıq ixtisasının təkmilləşməsinə böyük diqqət yetirilirdi. Bu məqsədlə, Ü.Hacıbəyli azərbaycanlı tələbələrin Moskvaya göndərilməsinə nail olur və hesab edirdi ki, professional musiqiçilərin yetişdirilməsində bu təkmilləşdirmə mühüm rol oynaya bilərdi. Bu məqsədlə Üzeyir Hacıbəylinin təşəbbüsü ilə bəstəkarlardan Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, pianoçulardan Nigar Usubova, Asya Zülfüqarova, Fəridə Quliyeva və digər istedadlı tələbələrin Moskva konservatoriyasına təhsil almağa göndərilməsi milli musiqiçi kadrların professionallıq səviyyəsinin yüksəldilməsi məqsədi daşıyırdı.

1944-cü ildə Tbilisi şəhərində keçirilən Zaqafqaziya respublikaları musiqi sənəti ongünlüyündə konservatoriyanın müəllim və tələbə heyətinin fəal iştirak etməsi də Üzeyir bəyin rəhbərliyi ilə musiqi təhsili sisteminin təkmilləşməsinin və musiqiçilərin ifaçılıq bacarıqlarının yüksəlməsinin əsas göstəricisi idi. Bu barədə “Üzeyir Hacıbəyli ensiklopediyası”nda belə məlumat verilir: “Ongünlüyün əsas təşkilatçılarında biri Hacıbəyli idi. 1947-ci ildə ADK kollektivi Nizaminin anadan olmasının 800 illiyi münasibətilə keçirilən tədbirlərdə fəal iştirak etmişdi” [4, s.34]. Ü.Hacıbəylinin rəhbərliyi ilə Azərbaycan Dövlət Konservatoriyasının respublikanın

hüdudlarından kənarda da tanınması, eyni zamanda onun fəaliyyətinin göstəricisi idi. Musiqi təhsili sisteminin inkişafına böyük əhəmiyyət verən Ü.Hacıbəyli konservatoriyanın pedaqoji heyətini də mükəmməl şəkildə təkmilləşdirməyə üstünlük verirdi. Bu məqsədlə Bülbül, Şövkət Məmmədova, Mayor Brenner, Boris Zeydman, Georgi Şaroyev, L.Rudolf kimi tanınmış pedaqoqları bu işə cəlb edirdi.

Beləliklə, Üzeyir Hacıbəylinin Azərbaycan musiqi təhsili sisteminin inkişafı istiqamətində apardığı böyük və məqsədyönlü işlər milli musiqiçilərin yetişdirilməsi istiqamətində mühüm addım oldu. Ü.Hacıbəyli Azərbaycanda professional tələblərə cavab verən musiqi təhsili sistemi yaratmağa nail oldu. Onun bu təşəbbüsü milli musiqi təhsili sisteminin bütün ixtisaslar üzrə formalaşmasına böyük təkan oldu. Onun Azərbaycanda musiqi təhsilini yaratmaq modeli XX əsrin I yarısında Azərbaycan Dövlət Konservatoriyasının yaradılması, azərbaycanlı tələbələrin Moskva və Peterburq konservatoriyalarında təhsil almağa göndərilməsi, milli musiqinin tədrisi ilə bağlı fənlərin tədris prosesinə tətbiq olunması ilə nəticələndi. Bu baxımdan Avropa ənənələrinə əsaslanan professional musiqi təhsili sisteminin Azərbaycanda tətbiq olunması məhz Üzeyir Hacıbəylinin fəaliyyəti nəticəsində formalaşaraq, inkişaf yoluna qədəm qoydu.[1]

**Rzayeva Arzu**
***Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının***
***"Metodika və xüsusi pedaqoji hazırlıq" kafedrasının dosenti***

[1] https://musicacademy.edu.az/images/konfranslar/konfrans_24_25_2025.pdf